# Prioritet hədəf

## Prezident İlham Əliyev: “Elə bir şərait yaratmalıyıq ki, gənclərimiz biliklərini Azərbaycanın güclənməsinə sərf etsinlər”



**Prezident İlham Əliyev yanvarın 26-da Rəşad Nəbiyevi nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən istedadlı gənclərin Azərbaycanda fəaliyyət göstərməsi, öz biliklərini burada tam realizə edə bilməsi və ölkəmizin güclənməsinə xidmət etməsi məsələlərinə toxunub. O, dünyada texnologiyaların çox sürətlə inkişaf etdiyini və addımların bu inkişafa uyğun şəkildə atılmasının vacibliyini diqqətə çatdırıb.**

Qeyd edib ki, Azərbaycanda texnologiyaların inkişafı sahəsində daha böyük addımlar atılmalıdır. Onun sözlərinə görə, xüsusilə, gənclər bu işlərə daha geniş miqyasda cəlb edilməlidir: ”Mən istedadlı gənclərlə görüşlər əsnasında bir şeyi gördüm ki, onların bəziləri öz biliklərini, innovasiyaları həyata keçirmək üçün xaricə üz tuturlar. Elə bir şərait yaratmalıyıq ki, istedadlı gənclərimiz Azərbaycanda fəaliyyət göstərsinlər, öz biliklərini burada tam realizə edə bilsinlər və ölkə iqtisadiyyatına, ölkəmizin güclənməsinə xidmət etsinlər. Ona görə, yeni texnologiyaların Azərbaycanda tətbiqi prioritet məsələlərdən biridir. Burada, ilk növbədə, əlbəttə ki, dünyada artıq üzə çıxan ən müasir texnologiyaların Azərbaycanda tətbiqindən söhbət gedir. Bunu biz mütləq etməliyik. Ən müasir texnologiyalar Azərbaycanda bütün sahələrdə tətbiq edilməlidir. Eyni zamanda, istedadlı insanların fəaliyyəti daha düzgün təşkil edilməlidir ki, Azərbaycan texnologiyaların istehsalçısı kimi də öz rolunu oynasın və öz sözünü desin”.

### "AZƏRBAYCANDA ÇOX BÖYÜK KADR BAZASININ YARADILMASINA EHTİYAC VAR"

**Prezident İlham Əliyevin səsləndirdiyi fikirləri ”Kaspi” qəzetinə şərh edən Milli Məclisin Gənclər və idman komitəsinin üzvü Müşfiq Cəfərov** deyib ki, Azərbaycanda böyük bir proses başlayıb. Gənc və dinamik kadrların idarəetməyə gətirildiyini xatırladan millət vəkili vurğulayıb ki, yerli icra hakimiyyəti orqanlarından tutmuş mərkəzi icra strukturlarına qədər, hər yerdə, gənclər müxtəlif vəzifələrə cəlb olunurlar: ”Ümumiyyətlə, potensialı olan, ölkədə öz üzərində işləyən, təhsilinə və inkişafına vəsait və zaman xərcləyən insanlar, xüsusən, gənclər kifayət qədərdir. Artıq bir çox dövlət qurumlarında işçi heyətin 90 faizinin dəyişdiyi müşahidə olunur. Bu, o sahələrdə baş verir ki, orada qərar verən yüksək idarəçilərin özləri islahatlara hazırdır, açıqdır. Artıq dövlət qurumlarında Türkiyədə, Rusiyada, Amerikada, Fransada işləyib ölkəmizə qayıdan, eləcə də ölkəmizdə dünya üzrə nüfuzlu xarici şirkətlərdə böyük təcrübə qazanmış kadrlara rast gəlinir. Onların yeniliyə açıqlığı, idarəetmə üzrə baxışları, dəyişikliklərə uyğunlaşma və digər bu kimi qabiliyyət, bacarıqlar üzrə fərqi auditoriyalarda hiss edilir. Beləliklə, ölkəmizdə çox böyük kadr bazasının yaradılmasına ehtiyac var. Çünki başlayan kadr dəyişikliyi prosesi və idarəetməyə gətirilən yeni nəfəs bunu zəruri edir. Düşünürəm ki, bu proses davam edəcək və ölkə üçün çox faydalı nəticələri olacaq”.

### "LAYİQLİ MÜTƏXƏSSİSLƏRİN BİLİK VƏ TƏCRÜBƏSİNDƏN BÜTÜNLÜKDƏ CƏMİYYƏT BƏHRƏLƏNİR"

Deputat söyləyib ki, istedadı, öz üzərində işləmə bacarığı və bir çox başqa xüsusiyyətləri olan, çoxsaylı yaradıcı, potensiallı gənclərin arasından dürüst, vicdanlı, vizyonlu, peşəkar bacarıqlar, yəni idarə etdiyi sahədən xəbərdar olan gənclər hər zaman dövlətin irəli getməsində xüsusi rol oynayır: ”Müasir inkişaf etmiş bütün dövlətlərdə gənclərin əmək fəaliyyətinə, dövlət idarəetmə işlərinə cəlb olunmasına, hökumət orqanlarında irəli çəkilməsinə böyük diqqət yetirilir və onlara, öz bacarıqlarını reallaşdırmaq üçün şərait yaradılması zəruri hesab olunur. İstedadlı gənclərin üzə çıxmasında, onların idarəçilik vərdişləri qazanmasında dövlət qayğısının da böyük rol oynadığı danılmazdır. ”İnsan kapitalı” prinsipinin bütün dünyada geniş tətbiq olunduğu bir dövrdə bütün sahələrdə, xüsusilə də dövlət idarəçiliyində güclü milli kadr ehtiyatlarının olmasının zəruriliyi və bu sahədə peşəkar insan ehtiyatının hər bir ölkənin sərvəti hesab edilməsi böyük bir faktdır. Bu baxımdan, düzgün aparılan kadr siyasəti, həm də bir növ, ölkənin strateji ehtiyatlarının idarə edilməsi deməkdir. Layiqli mütəxəssislərin bilik və təcrübəsindən nəinki dövlətin inzibati idarəetmə aparatı, o cümlədən cəmiyyət bəhrələnir və ölkənin rifahı və inkişafı üçün yaradılmış dövlət qurumlarının qarşısında qoyulmuş vəzifələrə uğurla nail olunmasında açar rolunu oynayır. Ölkədə aparılan düzgün gənclər siyasəti dövlət idarəçiliyində səmərəliliyin artırılmasında da müstəsna rol oynayır. Gənclər irəliyə daha inamla getməlidirlər, müvafiq dövlət, hökumət orqanlarında, eləcə də cəmiyyətin bütün sahələrində gənclərə böyük yer ayrılmalıdır, onlara inam olmalıdır. Cənab Prezidentin də çıxışında qeyd etdiyi kimi, xaricdə fəaliyyət göstərən və ölkəmizdəki gənclərin istedad və bacarıqları ilə dövlətimizi daha da inkişaf etdirməliyik”.

### "DÖVLƏT GƏNCLƏRİN İRƏLİ ÇƏKİLMƏSİNİ TƏMİN EDİR"

**Milli Məclisin Gənclər və idman komitəsinin digər üzvü Cavid Osmanov** qeyd edib ki, gələcəkdə uğurların qazanılması üçün gənclərin potensialından istifadə edilməsi mütləqdir. Onun sözlərinə görə, Azərbaycan gəncliyi müasir düşüncəli, yüksək intellektə malik gənclikdir: ”Prezident İlham Əliyev yanvarın 26-da Rəşad Nəbiyevi nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bir çox məqamlara diqqət çəkdi. Bu günə qədər görülmüş işlərin qeyd edilməsi ilə yanaşı, qarşıda duran vəzifələrin də xüsusi dəqiqliklə vurğulanması deməyə əsas verir ki, ölkəmiz yaxın gələcəkdə daha böyük uğurlara imza atacaq. Cənab Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi gənclər siyasəti nəticəsində ölkə gənclərinin xarici ölkələrdə yüksək ali təhsil almaları, müasir elmi biliklərə yiyələnmələri dövlətimiz tərəfindən təmin olunur. Gənclərimizin xarici ölkələrdə ali təhsil aldıqdan sonra qayıdaraq ölkəmizin gələcək inkişafına öz töhfələrini vermələri mütləqdir. Cənab Prezidentimiz İlham Əliyev də hər zaman çıxışlarında bunları qeyd edir. Dövlətimiz hər zaman gənclər üçün imkanlar yaradır, onların irəli çəkilməsini təmin edir. Xaricdə təhsil alan gənclərimiz bu işlərdə ön sıralarda dayanırlar. Bir sözlə, dövlətimiz gənclər üçün lazımi şəraiti yaradır və cənab Prezidentimizin tapşırıqlarına əsasən bundan sonra da gənclər üçün bütün imkanlar yaradılacaq ki, onlar ölkəmizin gələcək inkişafına öz töhfələrini versinlər”.



Millət vəkili yaşadığımız dövrün müasir texnologiyalar əsri olmasına da diqqət çəkib: ”Cənab Prezident İlham Əliyevin də əsas məqsədi odur ki, Azərbaycan həm müasir texnologiyaların tətbiq edildiyi, həm də müasir texnologiyalar istehsal edən bir ölkəyə çevrilsin. Məhz bu işlərdə gənclərimizin də üzərinə böyük vəzifələr düşür. Dövlətimizin, dövlət başçımızın gənclərə göstərdiyi etimadı doğruldaraq ölkəmizin inkişafına töhfə vermək hər bir gəncin əsas amalı olmalıdır”.

### "GƏNCLİYİN İDARƏETMƏDƏKİ PAYI, YERİ VƏ ROLU ARTACAQ"

**Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin (AGAAMC) sədri, fəlsəfə doktoru İlqar Orucov** da qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev hər zaman gənclərə, gənclərin irəli sürdüyü yeni təşəbbüslərin dəstəklənməsinə, gənclərin öz potensiallarını reallaşdırması prosesinə böyük önəm verib və hazırda bu siyasət uğurla davam etdirilir. Onun sözlərinə görə, Azərbaycan Prezidenti dövlətimizin idarə olunması, inkişaf etdirilməsi məsuliyyətini və yükünü həm də gənclərlə bölüşür: ”Xüsusilə, yeni texnologiyaların tətbiq edilməsində və effektli idarəetmədə gəncliyə önəm verilməsinin əhəmiyyətini daha da artırır. Bütün sahələrdə gəncliyimizin uğurlu fəaliyyəti üçün geniş və unikal imkanların yaradıldığı bir dövrdə innovasiyaların tətbiqi və realizə edilməsi zərurəti gəncliyin idarəetmədəki payını, yerini və rolunu daha artırmağı diktə edir. Bu baxımdan məsələnin aktuallığı daha artır. Azərbaycanda gənclər ən müxtəlif dövlət sektorlarında uğurla çalışmaqdadırlar və cənab Prezidentin nitqindən irəli gələn tezislər onu deməyə əsas verir və bir daha təsdiqləyir ki, istedadlı gənclərin bilik və bacarıqlarından səmərəli istifadənin gerçəkliyi daha da sürətlənəcək, gənclər öz ideyalarını reallaşdırmaqla həm yeni texnologiyaların idarə edilməsini təmin edəcəklər, həm də yeni texnologiyaların yaradılması imkanına təşviq ediləcəklər. Cənab Prezidentin istedadlı gənclərə önəm verilməsi istiqamətində tapşırıq və tövsiyələri həm də gənclərin enerjisindən istifadə edilməsi mexanizmlərinin yaradılmasını, gələcəkdə yeni startapların yaradılması, innovasiyaların sənayeyə və iqtisadiyyatın digər sahələrinə tətbiq edilməsi barədə siyasi mövqeyin qətiyyətini şərtləndirir”.

### "BİLİK İQTİSADİYYATI SÜRƏTLƏ İNKİŞAF ETMƏKDƏDİR"

AGAAMC sədri deyib ki, artıq dördüncü sənaye inqilabı dövründə dünyada yeni gerçəkliklər və çağırışlar mövcuddur. Onun fikrincə, bilik iqtisadiyyatı sürətlə inkişaf etməkdədir: ”Təbii resurslardan səmərəli istifadə və iqtisadiyyatın şaxələndirilməsi, alternativ və qeyri-ənənəvi sahələrin yaranması, yeni texnologiyaların tətbiqi ilə fərqli və tamamilə yeni ixtisasların formalaşması prosesi yeni reallıqları diktə edir. Yüksək texnologiyalar bilikli və bacarıqlı kadr hazırlığını tələb edir. Cənab prezidentin çıxışının mahiyyətində həm də dünyanın yeni gerçəkliklər fonunda ümumi inkişafından geri qalmaması çağırışı dayanırdı. Fikrimcə, bu çağırış həm dövlətin aidiyyəti qurumlarına, həm də bizim gəncliyə idi. Dövlət başçımız bununla istedadlı gənclərin yeni təşəbbüslərinin həyata keçirilməsi üçün bütün imkanların ən qısa zamanda yaradılacağı mesajını verdi. Gənclərimiz üçün yaradılacaq əlavə imkanlar dövlətimizin inkişafı prosesində, yeni texnologiyaların idarə edilməsi işində onların potensiallarından tam istifadə etmək üçün münbit şəraiti təmin edəcək. Azərbaycanda neft gəlirləri hesabına insan kapitalının inkişaf etdirilməsi, gənclərimizin ölkəmiz üçün strateji ixtisaslar üzrə təhsil almaqla bağlı reallaşdırılan dövlət qoyuluşlu və məqsədli proqramlar müasir biliklərə yiyələnmiş, milli ruhlu gənc kadr bazamızı artıq formalaşdırmışdır və bu işlər hazırda da davam edir. Kadr hazırlığı istiqamətində uğurlu işlərimiz onların potensialından postneft dövründə dayanıqlı inkişafımızı təmin edəcək iqtisadi keçidi təmin etmək üçün vacib addımlardandır və artıq zaman yetişib ki, biz insan kapitalımızın mövcud resurslarından faydalanaraq həm yeni texnologiyaları tətbiq edək, həm də yeni texnologiyalar yarada bilək. Əminəm ki, istedadlı gənclərimiz dövlət başçımızın çağırışına qoşularaq, onlar üçün yaradılan imkanları dəyərləndirərək ölkəmizin yüksək texnologiyalar və innovasiyalar sahəsində inkişafına öz töhfələrini verəcəklər”.

**Rufik İSMAYILOV**